**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

## “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tətbiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 28 dekabr tarixli 223-VI FR nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında

“Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tətbiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 28 dekabr tarixli 223-VI FR nömrəli Fərmanının (bundan sonra – Fərman) icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və digər aidiyyəti dövlət orqanları “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu ilə təsdiq edilmiş muxtar respublika büdcəsinin gəlirləri və xərcləri üzrə göstəricilərin yerinə yetirilməsi üçün müvafiq tədbirlər görsünlər və hər ay üçün növbəti ayın 5-dən gec olmayaraq bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsinlər.

2. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi Fərmanın 1.6.2.2-ci (Nəşriyyat) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsü barədə təkliflərini 20 (iyirmi) gün müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi Fərmanın 1.10.1.1-ci (Avtomobil yollarının əsaslı və cari təmiri xərcləri) və 1.10.3.1-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) yarımbəndlərində nəzərdə tutulan vəsaitin obyektlər və istiqamətlər üzrə bölgüsü barədə təkliflərini Fərmanın 4.1-ci bəndinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi Fərmanın 1.11.3.3-cü (Fövqəladə halların nəticələrinin aradan qaldırılması) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsü barədə təkliflərini 1 (bir) ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “8” yanvar 2024-cü il

№ 2s